# Şəhidlərin xatirəsinə ehtiram



Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev aprelin 8-də Şəhidlər xiyabanını ziyarət edib.

Dmitri Medvedev ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Rusiya Hökumətinin sədrinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Dmitri Medvedev Azərbaycan paytaxtının mənzərəsini seyr edib.

***AZƏRTAC***